**Adilə Nəzər**

# *Zəfər var!*

***(Böyük Türk sərkərdəsi Hulusi Akara ithaf)***

*Əzəldən günəş -bayraq, səma bizə göy çadır,*
*Zaman özü şahiddir türkün od nəfəsinə.*
*Diri Şəhid ruhları qan yaddaşı oyadır,*
*Tarixin nizə səsi dəyir raket səsinə.*

*Qarşımızı alammaz daha heç bir maneə,*
*Qaranlıqdan işıqlı səhərlərə səfər var.*
*Bizə işləyir artıq hər qiymətli saniyə,*
*Gözləyirik tezliklə qələbə var, zəfər var.*

*Mərddir hər bir əsgərim, mərddir hər bir qardaşım.*
*Türkün son əməli də ilk verdiyi söz olur..*
*Sevincimdən sel olub boğur məni göz yaşım,*
*İki qardaş birləşib, bir yumruqda biz olur.*

*Sağalacaq zamanla torpağın şırımları.*
*Bundan belə yurdumda yad ocağı alışmaz,*
*Səbirlə, təmkin ilə keçib aşırımları,*
*Haqqa üz tutanlarıq,- haqla nahaqq qarışmaz.*

*Qəlbim də qələmim tək güləcəkdir, əminəm,*
*Daha qandan silkinib gül açıb göyərəcək.*
*Bir Türk qəhrəmanını qoy gətirim nümunə*
*-Hər dövlətə Hulusi Akar tək paşa gərək.*

Ədalət.- 2023.- 8 noyabr, №43.-S.6.